

# Kinomuzun "Nəsimi"si, "Babək"i...







**Bu gün kinomuzun "Nəsimi"si, "Babək"i, Xalq artisti Rasim Balayevin doğum günüdür. Görkəmli sənətkarın bir-birindən maraqlı, bənzərsiz rolları ona ümumxalq məhəbbəti və şöhrət qazandırıb, fəxri adlara layiq görülüb.**

Rasim Əhməd oğlu Balayev 8 avqust 1948-ci ildə Ağsu rayonunda anadan olub. Ailənin böyüyü olan Rasimin oxumağa, öyrənməyə o qədər həvəsi vardı ki, artıq beş yaşında əlifbanı bilir, altı yaşında kitab oxuyurdu. Ona görə də valideynləri Rasimi altı yaşından məktəbə göndərirlər. Məktəb illərində ədəbiyyat müəlliminin sayəsində Rasimin ədəbiyyata, incəsənətə marağı yaranır. Bu barədə aktyorun özü deyir ki, nədənsə, mənim şeir söyləməyim, əsərləri intonasiyalı oxumağım müəllimlərin xoşuna gəlirdi. Sinifdə dram əsərlərini rollara görə bölüşdürür, əsəri səhnədəki kimi oxuyurduq. O vaxt radiotamaşalar olurdu, onlara qulaq asırdım və bu da sinifdə rolumu yaxşı oynamağıma kömək edirdi.

1965-ci ildə orta məktəbi bitirəndən sonra Rasimdə böyük sənətkarımız Səməndər Rzayev aktyorluq peşəsinə dərin maraq oyanır, qəlbində illərlə gəzdirdiyi arzusunun qanadlarında Bakıya gəlir. O, Mirzə Ağa Əliyev adına Teatr İnstituna (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ) daxil olur. Üçüncü kursda oxuyarkən Rasim Balayevə böyük dramaturq İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən" pyesindəki tamaşasında Həsənzadə rolu həvalə olunur. Ardınca, institut səhnəsində F.Şillerin "Qaçaqlar" əsərində Karl Moor, C.Cabbarlının "Almaz" pyesində Hacı Əhməd, H.Cavidin "Azər" poemasında Şeyx rollarını ifa edib. 1969-cu ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirən Rasim Balayev ilk dəfə Bakı kinostudiyasında "Ulduzlar sönmür" əsərində epizodik rola çəkilib.

Kinorejissor Həsən Seyidbəylinin 1973-cü ildə çəkdiyi "Nəsimi" Bakıda keçirilən Ümumittifaq Kino Festivalında "Ən yaxşı tarixi film" mükafatına layiq görüldü. Bu film Rasim Balayevin həyatına və sənət yollarına məşəl kimi işıq saçdı, bir-birinin ardınca "Nəsimi", "Babək", "Dədə Qorqud", "Qaçaq Nəbi", "Göz qabağında şeytan", "Otel otağı" və sair filmlərdə böyük məharətlə bənzərsiz, təkrarolunmaz obrazlar yaratdı. Sənətin və şöhrətin zirvələrini qısa zaman kəsiyində fəth etdi, yüksək fəxri adlara, mükafatlara layiq görüldü. "Azadlıq! Bu şirin söz", "Sənin ilk saatın", "Gəncəbasardan olan qisasçı", "Əlində ildırım olan atlı", "Sevincin qiyməti", "Atları yəhərləmək vaxtıdır", "Cin mikrorayonda", "Köhnə liman", "Əclaf", "Lətifə", "Doğma sahillər", "Tələ", "Şahid", "Zirzəmi", "Yarasa", "Cavid ömrü", "Sübhün səfiri" və başqa filmlərdə çəkildi. Kino aləmində tanındı və sevildi. 170-ə qədər filmdə yüksək sənətkarlıq, məharət nümayiş etdirərək kino tariximizin simalarından birinə çevrildi.



"Ulduzlar sönmür" əsərində epizodik rolda tamaşaçıların görüşünə gələn aktyorun söz demək, özünü tam olaraq göstərmək imkanları az olsa da, məhz Həsən Seyidbəyli kimi kinorejissor dərin mənalı baxışlara malik, bu yaraşıqlı gəncin daxilini görür və daxili potensialını üzə çıxarmaq üçün onu Nəsimi kimi Azərbaycan üçün önəmli bir şəxsiyyətin obrazına çəkir. Bu sadəcə bir seçim deyildi, həm də talenin, qismətin Rasim Balayev üçün hazırladığı çətin və məsuliyyətli bir yolun başlanğıcı idi. Nəsimi obrazında milyonların sevgisini qazanan aktyor sonralar ardı-arası kəsilmədən müxtəlif janrlı filmlərdə əsasən müxtəlif xarakterli obrazlara imza atır.

Xalq artisti, "Şöhrət" ordenli Rasim Balayev mədəniyyətimizin, mənəviyyatımızın əlçatmaz, ünyetməz zirvəsinə yüksələn qüdrətli sənətkardır. XX əsr Azərbaycan kinosunda onun yaratdığı obrazlar qalereyası mükəmməlliyi, zənginliyi və çoxşaxəliliyi ilə bənzərsizdir. "Məndə sığar iki cahan, mən bu cahana sığmazam!" - söyləyən böyük hürufi şair Nəsiminin müdrik, qətiyyətli obrazını, "qırx gün kölə kimi ömür sürməkdənsə bir gün azad yaşamağı" üstün tutan Xürrəmilər hərəkatının rəhbəri Babəkin çılğın, üsyankar portretini, Oğuz qəhrəmanlarından Bamsı Beyrəyin əsirlikdə məşəqqətlərə sinə gərmək bacarığını, dözümlülüyünü, inamını, psixoloji təbəddülatlarını böyük ustalıqla yaradan, yüzlərlə rola ekran həyatı bəxş edən Rasim Balayev Azərbaycan kinosunun sönməyən ulduzudur. Dahi söz ustadı Nəsiminin faciəvi hüznünü ölüm pəncəsində Günəşin saçaqlarında Tanrı dərgahına ucalmasını belə möhtəşəmliklə yaddaşlara həkk edib.

Azərbaycan kinosunda öz dəst-xətti olan, azər-



baycançılıq ideologiyasından çıxış edərək gənc nəsillərə vətən, torpaq, millət sevgisi, vətənpərvərlik ruhu aşılayan Rasim Balayev üçün kino sənəti daima zirvə hesab olunub. Bu vacib keyfiyyətləri onun kinoda yaratdığı obrazlar qalereyasında, Nəsimidə, Beyrəkdə, Babəkdə, Hüseyn Caviddə və daha onlarla obrazlarda görmək mümkündür. Belə rolların seçimi sadəcə özünə aid deyildi, eyni zamanda darmaturqların, rejissorların onu bütün bu gözəl keyfiyyətlərilə tanıdığından xəbər verirdi. İlk dəfə

Rasim Balayevin mənalı yaradıcılıq yolu neçə-neçə gənc aktyor nəsli üçün əsl sənət məktəbidir. "Ən yaxşı kişi rolu"na görə nominasiyanın qalibi olaraq ömür boyu bir aktyorun sənətdə qazana biləcəyi uğuru yalnız Nəsimi roluna görə əldə edib. Həmin ərəfədə onun 25-26 yaşı vardı. Aktyor 31 yaşında Babək rolunu oynayıb. 34 yaşında artıq Azərbaycanın Xalq artisti idi. Almaniyada, Türkiyədə, İranda, Tacikistanda, Osetiyada, Özbəkistanda, Moskvada, Gürcüstanda filmlərə dəvət alaraq bir-birindən maraqlı rollar yaradıb. Rasim Balayev onlarla əcnəbi filmin dublyajında da müxtəlif xarakterli obrazları səsləndirib. O, yalnız müsbət qəhrəmanı deyil, həm də cəmiyyətdəki mənfi tipləri yaratmaqla tamaşaçı auditoriyasını düşündürə bilib. Aktyor çəkildiyi bəzi filmlərə görə yaxınları tərəfindən qınanıldığını, incidildiyini də deyib: "Məni tamaşaçılara sevdirən obrazlarım bəzən mənə problemlər yaradıb. Məsələn, "Həm ziyarət, həm ticarət", "Otel otağı" filmlərində çəkildiyimə görə yaxınlarım məni qınayıblar. Amma mən başqalaşmağı, fərqli obrazlar oynamağı sevirəm". Rasim Balayevin yaratdığı obrazlar təbii, inandırıcıdır. Azərbaycan kino tarixində öz yeri var.

Rasim Balayevin yaradıcılığı sadəcə aktyorluqla məhdudlaşmır, Azərbaycan Kinematoqrafçılar İttifaqının I katibi olaraq onlarla layihələrdə, tədbirlərdə, kinematoqrafçılar üçün hazırlanan proqramların həyata keçirilməsində böyük rol oynayıb. Xalq yazıçısı, dramaturq Rüstəm İbrahimbəyovun dünyasını dəyişməsindən sonra Rasim Balayev yeganə namizəd olaraq 2022-ci ildə Azərbaycan Kinematoqrafçılar İttifaqının İdarə Heyətinin sədr seçildi. Onun AKİ sədri olması sadəcə kinematoqrafçılar deyil, xalqımız tərəfindən də dəstəkləndi.

Azərbaycan kino mədəniyyətinin inkişafında əvəzsiz xidmətləri olan Xalq artisti, Prezident təqaüdçüsü Rasim Balayevə 2023-cü il avqustun 8-də "İstiqlal" ordenini təqdim edən Azərbaycan Prezidenti İlham Əliyev aktyorun yaradıcılığını yüksək qiymətləndirib: "Siz Azərbaycan xalqını öz sənətinizlə uzun illərdir ki, sevindirirsiniz. Fəaliyyətiniz çox məhsuldardır, onlarla filmdə çəkilmisiniz. Ümumiyyətlə, Azərbaycanın kino sənətinə çox böyük töhfə vermisiniz və bu fəaliyyət davam edir. Mən buna çox sevinirəm, çox şadam. Siz, eyni zamanda, ölkəmizin ictimai həyatında da çox fəalsınız. Çox dəyərli fikirləriniz ölkəmizin ümumi inkişafına dəstəkdir. Təbii ki, sizin kino fəaliyyətiniz Azərbaycan xalqı üçün Babək, Nəsimi obrazları ilə də bağlıdır. Xalq qəhrəmanımız Babəkin, dahi şairimiz Nəsiminin obrazlarını siz canlandırmısınız və Azərbaycan xalqının təsəvvüründə də onlar elə sizin obrazınızdır".

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2025.- 8 avqust (№ 164).- S.11.